# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 80** **Bakı şəhəri, 14 mart 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473, № 12, maddələr 2047, 2055, 2061; 2020, № 1, maddə 84, № 2, maddələr 185, 195, 219, № 3, maddələr 345, 375, № 4, maddə 488, № 8, maddə 1130, № 10, maddə 1267; 2021, № 1, maddə 94, № 2, maddə 201, № 3, maddə 271, № 4, maddələr 392, 422, № 9, maddə 1053, № 10, maddə 1172; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 dekabr tarixli 391 nömrəli, 20 dekabr tarixli 395 nömrəli, 23 dekabr tarixli 412 nömrəli, 29 dekabr tarixli 417 nömrəli və 2022-ci il 29 yanvar tarixli 34 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”nə “2403 99 900 2” alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 2403 99 900 3 | – – – – qəlyan üçün tütün əvəzləyiciləri | - | 1 kq<br>1 ABŞ dolları |
| 2403 99 900 4 | – – – – birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri | əd | 15 |

**2.** Bu Qərar 2024-cü il 31 dekabr tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***